# 2016-cı il Gənclər üçün Prezident mükafatçıları



**Elvin ASLANOV,**
*“Azərbaycan Tələbələri” İctimai Birliyinin sədri*

## “Aldığım mükafat cənab Prezidentin gənclərə böyük etimadının göstəricisidir”

1991-ci il aprelin 21-də Bakıda anadan olub. 2008-ci ildə Bakıdakı 244 nömrəli tam orta məktəbi bitirib. 2008-2012-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında təhsil alıb. 2007-2008-ci illərdə “Gənclər üçün Təhsil Mərkəzi” İctimai Birliyində tələbə problemləri üzrə proqram meneceri vəzifəsində çalışıb. 2008-ci ildə “Azərbaycan Tələbələri” İctimai Birliyinin həmtəsisçisi olub və təşkilatın sədri seçilib. Birlik Avropa Tələbələr Birliyinin tamhüquqlu üzvüdür. Avropanın 10 müxtəlif ölkəsindən ən aktiv gənclər təşkilatlarının birləşdiyi Avropa Gənclərinin Mobillik Şəbəkəsinin yaradılması prosesində fəal iştirak edib. Hazırda şəbəkənin İdarə Heyətinin üzvüdür. Avropa İttifaqının 2007-2013-cü illəri əhatə edən “Gənclər Fəaliyyətdə” və 2014-2020-ci illəri əhatə edən “Erasmus+” proqramlarının Azərbaycanda təbliğ edilməsində fəal iştirak edib. E.Aslanovun “Azərbaycan Tələbələri” İctimai Birliyinə rəhbərlik etdiyi dövrdə təşkilatın həyata keçirdiyi layihələrdə 2000-dən artıq gənc yaxından iştirak edib. E.Aslanov Azərbaycanın ilk dəfə Avropa Tələbələr Birliyində təmsil olunmasını təmin edib. 2015-ci ildə Bakı birinci Avropa Oyunları Əməliyyat Komitəsinin Akkreditasiya əməliyyatları üzrə əlaqələndiricisi olub.

Elvin Aslanov 2016-cı il yanvarın 29-da Prezident İlham Əliyevlə görüşdə iştirak edib. “Azərbaycan Tələbələri” İctimai Birliyinin sədri həm görüş, həm də aldığı mükafat barədə fikirlərini bizimlə bölüşüb:

- Ölkə Prezidenti cənab İlham Əliyevin bir qrup fəal gənclə görüşməsi müstəsna əhəmiyyətə malikdir. 2 fevral - Gənclər Günü ərəfəsində belə bir görüşün baş tutması ölkə başçısının gənclərə ən yüksək səviyyədə diqqətinin bariz nümunəsidir. Keçirilən görüşdə iştirak edən bir gənc kimi onu deyə bilərəm ki, Prezident hər dəfə olduğu kimi gənclərlə çox səmimi bir söhbət apardı. Bu görüş biz gənclərə yeni hədəflərin müəyyən edilməsi, fəaliyyət istiqamətlərinin seçilməsi, məqsədlərin aydınlaşdırılması baxımından faydalı olacaq. Cənab Prezident hər dəfə gənclərə necə xüsusi qayğı ilə yanaşırsa, gənclər də cənab Prezidentin ətrafında sıx birləşməklə ölkəmizin və dövlətimizin inkişafı üçün əllərindən gələni edəcəklər. Aldığım mükafatla bağlı isə onu deyə bilərəm ki, bu, cənab Prezidentin gənclərə böyük etimadının göstəricisidir. Mən və rəhbərlik etdiyim təşkilat da bundan sonra bu etimadı doğrultmaqdan ötrü əlindən gələni əsirgəməyəcək. Çalışacağıq ki, cənab Prezidentin göstərdiyi yolda, onun dəstəyi və diqqəti sayəsində inamla irəliləyək. Mən bir daha öz adımdan cənab Prezidentə təşəkkür edir, “Azərbaycan Tələbələri” İctimai Birliyinin sədri kimi bəyan edirəm ki, bundan sonra da ölkəmizin inkişafında bütün bilik və bacarığımı sərf edəcəyəm.



**Ramiz ƏLİYEV,**
*“Sağlam Düşüncə” Gənclər Təşkilatının sədri*

## “Mükafata görə Prezident İlham Əliyevə təşəkkürümü bildirirəm”

1987-ci il iyunun 20-də Sumqayıt şəhərində anadan olub. 2005-ci ildə Sumqayıt şəhər 30 nömrəli tam orta məktəbi bitirib. 2006-2010-cu illərdə Azərbaycan İctimai-Siyasi Universitetinin jurnalistika fakültəsinin bakalavr pilləsində təhsil alıb. 2003-cü ildən Sumqayıt şəhərindən ən fəal gənc kimi UNİCEF-in yeniyetmə və gənclər proqramına cəlb edilib. 2004-2005-ci illərdə könüllü əsaslarla UNİCEF-in Sumqayıtdakı Resurs Mərkəzinin rəhbəri olub. 2006-cı ildə Sumqayıt şəhərində “Sağlam Düşüncə” Gənclər Təşkilatını təsis edib, fəaliyyəti çərçivəsində 50-dən çox yerli və beynəlxalq layihələrin müəllifi olub. 2008-ci ilin noyabrında Amerika Təhsil Şurasının “Açıq Dünya” proqramı çərçivəsində ABŞ-ın Vaşinqton və Minnesota şəhərlərində “Gənclər və təhsil” mövzusu üzrə təcrübə proqramında iştirak edib və bu proqramın məzunu olub. 2008-2010-cu illərdə “Gənclər İnkişaf Naminə” İctimai Birliyində proqram rəhbəri, 2008-2012-ci illərdə “Vətəndaş Cəmiyyəti Uğrunda” Müstəqil Yardım və Məsləhət Mərkəzində seçkilər üzrə təlimçi və ekspert vəzifələrində çalışıb. 2012-ci ilin iyul ayında Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədr müavini vəzifəsinə seçilib. Azərbaycanın beynəlxalq aləmin təmsilçilik istiqaməti olaraq 2012-ci il iyul ayında “Birlik” Beynəlxalq Gənclər İctimai Birliyinin Mərkəzi Nəzarət komissiyasının sədr müavini seçilib. R.Əliyev 2008-ci ildən bəri 30-dan çox ölkədə təşkil edilən 80-dən çox tədbirdə Azərbaycanı iştirakçı, təlimçi və ekspert qismində təmsil edib.

- Gənclər üçün Prezident Mükafatına layiq görüldüyümə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkürümü bildirirəm. Bu mükafat biz gənclərin fəaliyyətinə verilən qiymətlə yanaşı bizim məsuliyyətimizin daha da artmasına təkan verən bir amildir. Biz də, öz növbəmizdə, fəaliyyətimizlə bizə göstərilən etimadı doğultmaq üçün əlimizdən gələni etməyə hazır olmalıyıq. İctimai fəaliyyətimizlə Azərbaycan dövlətinə və millətinə xidmət etməyə, gənclərin daha da inkişafında bütün səylərimizi səfərbər edəcəyimizə söz veririk. Azərbaycan gəncliyi hər zaman ölkədə aparılan gənclər siyasətinin bəhrəsini görüb və bundan sonra da görəcəyinə əminəm.



**Nərmin NƏCƏFLİ,**
*Almaniyanın Hannover Musiqi, Dram və Media Universitetinin tələbəsi, Prezident təqaüdçüsü*

## “Bu mükafat mənim üçün böyük şərəf, məsuliyyətdir”

1996-cı ildə Bakıda anadan olub. Bülbül adına Orta İxtisas Musiqi Məktəbində fortepiano ixtisası üzrə əməkdar müəllim, professor Ədilə Rəhimovanın sinfində təhsil alıb. 2004-2007-ci illərdə Bakıda, Moskva şəhərində 8-12 yaşlı uşaqlar arasında keçirilən beynəlxalq müsabiqələrin qalibi, Tbilisidə keçirilən beynəlxalq musiqi festivalının laureatı, II və IV beynəlxalq Rostropoviç, 2011-ci ildə III beynəlxalq Üzeyir Hacıbəyli festivallarının iştirakçısı olub. 2008-ci ilin mayında ümummilli lider Heydər Əliyevin 85 illik yubileyinə həsr olunmuş I Respublika müsabiqəsində “Qran-pri”yə layiq görülüb. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Nərmin Nəcəfli xüsusi aylıq təqaüdə layiq görülüb və adı Azərbaycanın gənc istedadlarının “Qızıl kitab”ına yazılıb.

2010-cu ildə Almaniyada keçirilən beynəlxalq müsabiqədə çıxış edən Nərmin 38 iştirakçı arasında seçim turundan qalib çıxan 8 nəfərdən biri olub. Uğurlu çıxışına görə xüsusi mükafata layiq görülüb. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Fransanın Reyms şəhərində keçirilən “Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri” adlı konsert proqramında uğurla çıxış edib. İngiltərənin Nyukasl şəhərində gənc pianoçuların V beynəlxalq müsabiqəsində I yerə layiq görülüb. 2014-cü ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini bitirib, imtahan verərək Almaniyanın Hannover şəhərindəki Musiqi, Dram və Media Universitetinin fortepiano şöbəsinə qəbul olunub, hazırda professor Bernd Goetzkenin sinfində təhsilini davam etdirir.

- Mən Gənclər üçün Prezident mükafatına layiq görülməyim haqqında xəbəri Almaniyanın Hannover Musiqi, Dram və Media Universitetində eşitdim. Anam mənə bu şad xəbəri verəndə çox sevindim. Sevinməyimi ətrafımdakı tələbələr də hiss etdilər. Mən fəxrlə Prezidentimiz tərəfindən mükafata layiq görülməyimi müxtəlif millətlərdən olan tələbə yoldaşlarıma dedim. Onlara bu haqda söyləyəndə Vətənimlə, Prezidentimizlə necə də qürur duydum! Ulu öndərimiz Heydər Əliyevin sözləri ilə desəm, fəxr elədim ki, mən Azərbaycanlıyam. Bizim ölkəmizdə insanlara, xüsusilə də gənc istedadlara böyük dövlət qayğısı var. Mən bu qayğını lap kiçik yaşlarımdan hiss etmişəm. Təsadüfi deyildir ki, mən adı Azərbaycanın gənc istedadlarının “Qızıl kitabı”na yazılan və Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülən ən gənc ifaçıyam. Hər dəfə xarici ölkə səhnəsində çıxış edəndə Azərbaycanı təmsil etməkdən qürur duyuram. İndi də 19 yaşımda belə böyük mükafata mən layiq görüldüyüm üçün möhtərəm Prezidentimizə dərin təşəkkürümü bildirirəm. Bu mükafat mənim üçün böyük şərəf, məsuliyyətdir. Bu məsuliyyəti öz üzərimdə hiss edir və çalışıram ki, mənə Prezidentimiz tərəfindən göstərilən böyük etimadı doğruldum, Azərbaycanı dünya miqyasında şərəflə təmsil edim.



**Elvin Hoca QƏNİYEV,**
*İsveçrənin Sürix Konservatoriyasının tələbəsi, Prezident təqaüdçüsü*

## “Mükafata layiq görülməyim barədə xəbəri İsveçrədə aldım”

1997-ci il noyabrın 25-də Ankarada musiqiçi ailəsində anadan olub. Məşhur Azərbaycan skripkaçısı, xalq artisti, professor Sərvər Qəniyevin nəvəsidir. Elvin 5 yaşından babası ilə skripkada məşğul olmağa başlayıb. O, 6 yaşında Ankarada Bilkənt Universiteti nəzdində musiqi məktəbinə daxil olub. İlk konsertini 5 yaşında olarkən verib. 7 yaşında Elvin babası Sərvər Qəniyevlə birlikdə İstanbulda orkestrdə çıxış edib. 2006-cı ildə Moskvada “Klassik irs” beynəlxalq musiqi müsabiqəsinin, 2007-ci ildə skripkaçıların Güldən Turalı adına müsabiqəsinin qalibi olub. O, bu müsabiqədə türk bəstəkarı əsərinin ən yaxşı ifaçısı kimi xüsusi mükafata layiq görülüb. 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Elvin Qəniyevin adı gənc istedadların “Qızıl kitab”ına yazılıb və o, Prezident təqaüdünə layiq görülüb. Elvin Qəniyev Polşada gənc skripkaçıların K.Lipinski və Q.Venyavski adına XI beynəlxalq müsabiqəsinin (2009), İspaniyada keçirilən “Madrid gecələri” II beynəlxalq müsabiqə-festivalın, İsveçrədə gənc musiqiçilərin P.Çaykovski adına VII beynəlxalq müsabiqəsinin (2012), D.Oystrax adına Moskva beynəlxalq müsabiqəsinin (2013) laureatı olub. 2010-cu ildə İtaliyada keçirilmiş gənc musiqiçilərin beynəlxalq müsabiqəsində qələbəsindən sonra Elvin Qəniyev Roma Papası tərəfindən ordenlə təltif olunub. O, dünyanın bir sıra nüfuzlu beynəlxalq, o cümlədən Bakıda Rostropoviç adına beynəlxalq festivalda, Parisdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın himayəsi ilə keçirilən “Xoş Məramlı Mələklər” festivallarında iştirak edib. Onun Nyu-Yorkda Karneqi- Fondda keçirilən konserti böyük alqışlarla yadda qalıb. Elvin Qəniyev İsveçrənin Sürix Konservatoriyasında professor Zaxar Bronun tələbəsidir. O, dünyanın 6 ən yaxşı skripkaçısı siyahısında yer alıb.

- Gənclər üçün Prezident mükafatına layiq görülməyim barədə xəbəri təhsil aldığım İsveçrədə aldım. Xoş xəbəri mənə ilk dəfə anam çatdırdı. Bu, mənim üçün olduqca sevincli xəbər oldu. Mükafata layiq görülməyim barədə onu deyə bilərəm ki, ölkəm üçün qürur hissi keçirirəm. Prezident mükafatını mənim musiqi sahəsində fəaliyyətimə verilən ən böyük qiymət hesab edirəm. Mükafatla bağlı təəssüratım budur ki, dövlətimiz biz gənclərə böyük etimad, diqqət və qayğı göstərir. Bu mükafat məni ölkəm adına daha yüksək zirvələr fəth etməyə stimullaşdırır. Hər konsertimdən sonra Azərbaycan bayrağını zirvələrdə dalğalandırmaq olduqca qürurvericidir. Əldə etdiyim uğurlarda azərbaycanlı olduğum üçün özümü xöşbəxt hiss etmişəm. Bu amil mənim üçün əhəmiyyətli olduğu qədər qürurvericidir. Nüfuzlu müsabiqələrdə bayrağımızı dalğalandırmaq həm də Azərbaycanın bütün dünyada tanıdılması deməkdir. Bu, çox xoş hissdir.



**Elvin MƏLİKOV,**
*BDU-nun kimya fakültəsinin müəllimi, elmi işçi*

## “Bu etimadı doğrultmaq üçün bütün səy və bacarığımla çalışacağam”

1987-ci il noyabrın 7-də Bakı şəhərində anadan olub. 1994-2005-ci illərdə Bakıdakı 200 nömrəli tam orta məktəbdə təhsil alıb. 2009-cu ildə Bakı Dövlət Universitetinin kimya fakültəsinin bakalavr, 2012-ci ildə magistratura pilləsini fərqlənmə diplomu ilə bitirib. 2012-ci ildə “Makromolekullar kimyası” ixtisası üzrə BDU-nun doktoranturasına qəbul olunub. “Funksional polimerlər və karbon nanoboruları əsasında nanokompozitlərin alınması və tədqiqi” mövzusunda yerinə yetirdiyi dissertasiya işini tamamlayaraq müdafiəyə təqdim edib. Avropanın nüfuzlu ali məktəblərindən Szeged, Bilkənt, Gürcüstan Texniki və digər universitetlərdə elmi tədqiqat işləri aparıb. Dünyanın müxtəlif ölkələrindən olan nüfuzlu alimlərlə elmi əməkdaşlıq edən Elvin Məlikov hazırda BDU-nun kimya fakültəsinin Yüksəkmolekullu birləşmələr kimyası kafedrasında müəllim və “Metalkompleks katalizatorları” elmi-tədqiqat laboratoriyasında elmi işçi kimi fəaliyyət göstərir. O, Təhsil Nazirliyinin SABAH qruplarında da tədrislə məşğuldur. İngilis və Azərbaycan bölmələrində dərs aparır, BDU-nun Gənc Alimlər Şurasının üzvüdür.

Onun son zamanlarda 27 elmi əsəri dərc olunub. Bu əsərlərə xarici ölkələrin və Azərbaycanın jurnallarında, əsasən də Elsevier nəşriyyatından olan Thomson Reuters-Web of Science bazasının SCI və SCI-E seriyalarına aid nüfuzlu elmi jurnallarda nəşr olunmuş məqalələr, yerli və beynəlxalq konfrans və simpoziumların tezis və konfrans materialları daxildir. O, 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 5-ci Mobillik Qrantının qalibi olub. Magistraturada təhsil aldığı illərdə BDU-nun 50+50 qrant layihəsinin də qalibi olub. Avropa Komissiyasının VII çərçivə proqramının NAPEP qrant layihəsində iştirak edib.

- Bu il gənclər günü mənim üçün xüsusilə yaddaqalan oldu. Belə ki, mən möhtərəm Prezidentimiz, gənclərin sevimlisi cənab İlham Əliyev tərəfindən Gənclər üçün Prezident Mükafatı ilə təltif olunmuşam. Elm, təhsil, mədəniyyət, ədəbiyyat və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən gənclərin mükafatlandırılması onların gələcək fəaliyyətlərinə stimullaşdırıcı təsir göstərir. Mükafatlar çoxdur, amma onun kim tərəfindən və nəyə görə təqdim olunması xüsusi əhəmiyyət kəsb edir. Mən belə yüksək mükafata layiq görüldüyüm üçün ilk növbədə, Azərbaycan dövlətinə, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənablarına dərin minnətdarlığımı bildirir və bu etimadı doğrultmaq üçün bütün səy və bacarığımla çalışacağam.



**Fəxriyyə MƏMMƏDOVA,**
*AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunun böyük elmi işçisi, kimya üzrə fəlsəfə doktoru*

## “Dövlətimizin diqqətini hər zaman hiss etmişəm”

1987-ci il avqustun 15-də Bakı şəhərində anadan olub. 2004-cü ildə 83 nömrəli məktəb-liseyi fərqlənmə attestatı ilə bitirib. Həmin il dövlət xətti ilə Sankt-Peterburq Dövlət Universitetinin kimya fakültəsinə qəbul olunub, 2009-cu ildə həmin universiteti “kimyaçı” olaraq bitirib. 2009-2011-ci illərdə AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunda kimyaçı vəzifəsində çalışıb. Eyni zamanda Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında kimya fənni üzrə ekspert şurasının üzvü kimi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanları üçün test tapşırıqlarının hazırlanması və ekspertizasında fəal iştirak edib. 2011-ci ilin dekabr ayında “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin kimya fakültəsinin aspirantura pilləsinə qəbul olunub. 2015-ci ilin iyun ayında biotexnologiya, o cümlədən bionanotexnologiya ixtisası üzrə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. 2015-ci ilin avqust ayından AMEA-nın Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda böyük elmi işçi vəzifəsində və eyni zamanda Qafqaz Universitetində lektor kimi çalışır.

Fəxriyyə Məmmədovanın mikroyosun biokütləsinin effektiv toplanması, onun emalı və kommersiya əhəmiyyətli məhsullara transformasiyası texnologiyalarının yaradılması sahəsində elmi-tədqiqat işlərinin nəticələri nüfuzlu xarici elmi jurnallarda dərc edilib, beynəlxalq konfranslarda təqdim edilib. Onun 18 elmi əsəri çap olunub ki, onlardan biri də Rusiya Federasiyasının patentidir.

- Mən bu mükafata layiq görüldüyüm üçün böyük qürur hissi duyuram. Əslində dövlətimizin diqqətini hər zaman hiss etmişəm. Vaxtı ilə dövlətim mənə etimad göstərib xaricdə təhsil almağıma yardımcı olub, hər cür qayğı göstərib. Mən də öz növbəmdə məsuliyyət hissi duyaraq həmişə göstərilən etimadı doğrultmağa, dövlətimin, ailəmin adını uca tutmağa çalışmışam. Bu günlərdə isə zəhmətimin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən belə yüksək qiymətləndirilməsi mənim üçün olduqca qürurvericidir, eyni zamanda bir gənc alim kimi yeni nailiyyətlər əldə etmək üçün böyük bir stimuldur. Əlbəttə ki, mənə göstərilən bu diqqət və qayğıya görə bir daha dövlətimizə və Prezidentimiz cənab İlham Əliyevə öz minnətdarlığımı bildirirəm. Çalışacağam ki, gələcək fəaliyyətimdə də mənə göstərilən bu yüksək etimadı hər zaman doğruldum. Mənim bir alim kimi formalaşmağımda xidməti olan 83 nömrəli məktəb-liseyin müəllimləri başda olmaqla anam Gülnarə müəllimə minnətdaram.

**Oruc MUSTAFAYEV,**
*“Azərbaycan müəllimi”,*
o.mustafayev@muallim.edu.az